# Mədəniyyətə və sənətə yüksək ehtiram nümunəsi

***Prezident İlham Əliyevin iştirakı ilə Ağdam Muğam Mərkəzinin təntənəli açılışı Qarabağın dirçəlişinin rəmzlərindən biri və bölgənin mədəni həyatında növbəti əlamətdar hadisə olaraq tarixə düşdü. Açılış mərasiminin 2025-ci il mayın 10-da - müasir Azərbaycanın memarı, mədəniyyət və incəsənətimizin böyük himayədarı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümündə baş tutması xüsusi məna kəsb edir. Məhz belə bir gündə muğam sənətimizin beşiyi olan Ağdamda Mərkəzin istifadəyə verilməsi Heydər Əliyev irsinin davamı olaraq mədəniyyətə və sənətə göstərilən yüksək ehtiramın bariz nümunəsidir.***




Bu tədbirdə iştirak etmək, xüsusilə də Müzəffər Ali Baş Komandanımızın işğaldan azad olunmuş torpaqlarda reallaşdırdığı quruculuq strategiyasının ilk real nəticələrindən olan Qarabağ Universitetinin bir parçası olaraq bu açılış mərasiminin canlı şahidi olmaq böyük qürur və fəxarət mənbəyi oldu. Qarabağ Universitetinin İncəsənət fakültəsinin bir qrup kollektiv üzvünün də bu möhtəşəm açılış tədbirində təmsil olunması və iki əməkdaşının səhnədə muğam ifa etmələri olduqca xoş təsir bağışladı. Bu, bizim üçün təkcə bir sənət təqdimatı deyil, həm də möhtərəm Prezidentimizin yaratdığı Qarabağ Universitetinin bölgənin mədəni həyatındakı fəal mövqeyinin göstəricisidir.

Tədbir zamanı Ağdam Muğam Mərkəzinin səhnəsində dinlədiyimiz bütün ifalar fərqlənirdi. Eyni musiqiləri eyni sənətkarların təqdimatında dəfələrlə dinləmiş olsaq da, həmin gün səsləndirilən bütün musiqilərdə tamamilə başqa bir ecazkarlıq hiss olunurdu. Təbii ki, bu da məhz həmin məkanın, zamanın və milli ruhun yaratdığı bənzərsiz auradan qaynaqlanırdı. Mərkəzin səhnəsində peşəkar sənətkarlarla yanaşı, istedadlı gənc ifaçıların, o cümlədən ağdamlı uşaqların çıxışları, onların tarixi Zəfərdən güc alan və Qarabağda olmaqdan vəcdə gələn unikal zəngulələri hər kəsi heyran etdi. Bu, eyni zamanda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın muğam sənətinin inkişafına göstərdiyi davamlı dəstəyin təntənəli təzahürü idi.









Ağdam Muğam Mərkəzinin açılışı, sadəcə bir binanın istifadəyə verilməsi deyil, Qarabağın mədəni kimliyinin dirçəlişi və ruhunun yenidən doğulması deməkdir. Bu Mərkəz gələcəkdə həm Azərbaycanın, həm də Türk dünyasının muğam mədəniyyətinin yaşadıldığı, qorunduğu və inkişaf etdirildiyi önəmli mərkəzlərdən biri olaraq dünyaya səs salacaq. Prezident İlham Əliyevin Mərkəzin açılış mərasimindəki sözləri ilə ifadə etsək: "İstərdim ki, artıq bu gözəl salonda müntəzəm olaraq gözəl muğam bayramları, o cümlədən muğam müsabiqələrinin tədbirləri keçirilsin. Əminəm ki, belə də olacaq".

Dövlət başçımız İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı və dünyada alternativi olmayan bərpa və quruculuq işlərinin bu gün bariz nəticələrini görmək hər birimizi fərəhləndirir. Möhtərəm Prezidentimizin Ağdam Muğam Mərkəzinin açılışında qeyd etdiyi kimi: "Əgər bütün görülən işlərin miqyasını götürsək, sözün düzü, mən bilmirəm hansı ölkədə hazırda bu miqyasda quruculuq, inkişaf işləri aparılır". Həqiqətən də "dağıdan yox, qurub-yaradan xalq" olmaq fikri bu gün Qarabağın hər qarışında real layihələrlə sübuta yetir. İşğaldan azad edilmiş ərazilərimizdə yüzlərlə obyekt - yaşayış kompleksləri, məktəblər, bağçalar, xəstəxanalar, mədəniyyət evləri, məscidlər, dəmir yolu və avtomobil yolları sürətlə inşa olunur və regionda həyatın canlanmasına geniş imkanlar yaradır.

Mərkəzin açılış tədbiri, həmçinin dövlət başçımızın ilk dəfə ictimaiyyətlə bölüşdüyü xoş bir xəbərlə də yadda qaldı: "Biz Şuşanı Xankəndi ilə birləşdirən "Kanat yolu" layihəsi üzərində işləyirik. Onu da bildirməliyəm ki, Laçın şəhərində kanat yolunun tikintisinə yəqin ki, bu il başlanılacaq. Kəlbəcərdə də belə layihə var. Yəni ki, bu, həm turizm baxımından, həm insanların rahat gediş-gəlişi üçün çox gözəl bir vasitə olacaq". Şübhəsizdir ki, istifadəyə verilmiş Ağdam-Bərdə avtomobil yolu, Ağdam-Xankəndi-Şuşa yolu, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi, eləcə də Xankəndidə planlaşdırılan vağzal kompleksi və "Kanat yolu" kimi təşəbbüslər, bütövlükdə Qarabağın digər bölgələrlə kommunikasiyasını və inteqrasiyasını sürətləndirəcək. Bu layihələr bölgədə nəqliyyatı rahatlaşdırmaqla yanaşı, həm də iqtisadi fəallığı artıracaq və bir çox sektorların inkişafını hərəkətə gətirəcək.

Qarabağda gedən quruculuq prosesi sadəcə fiziki infrastrukturun bərpası deyil - bu, milli kimliyin, mədəni irsin, sosial həyatın və iqtisadi gücün yenidən dirçəldilməsidir. Qarabağ yalnız tikililərlə deyil, təhsil, mədəniyyət, sənət və milli ruh ilə dirçəlir. Muğam Mərkəzinin açılışı bir daha göstərdi ki, Qarabağın mədəniyyəti yaşayır, inkişaf edir və yeni nəsillərə ötürülür. Qarabağda həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri dünyaya bir daha nümayiş etdirdi ki, bu torpaqların əsl və əzəli sahibi Azərbaycan xalqıdır. Dağıdılmış şəhər və kəndlərimizin qısa zamanda müasir infrastruktura malik mədəni məkana çevrilməsi, həm tarixi ədalətin bərpası, həm də güclü dövlət iradəsinin bariz nümunəsidir. Prezident İlham Əliyevin açılış nitqində vurğuladığı kimi: "Bir daha sübut etdik ki, bu torpaqların sahibi bizik, çünki biz dağıdan yox, qurub-yaradanıq və bundan sonra da bu torpaqlarda əbədi yaşayacağıq".

Qarabağ Universiteti ailəsi olaraq, biz də bu torpaqların ruhuna, tarixinə və gələcəyinə sadiqik. Xankəndidə fəaliyyət göstərən universitetimiz yalnız təhsil müəssisəsi deyil, həm də şəhərin yenidən canlanmasında strateji rol oynayan əsas dayaqlarından biridir. Hazırda minlərlə gəncin təhsil aldığı və yaradıcı potensialını reallaşdırdığı Qarabağ Universiteti bu ərazilərdə həyatın bərpası və davamlı inkişafına töhfə vermək üçün fəaliyyətini böyük səylə və həvəslə davam etdirir. Prezident İlham Əliyevin Muğam Mərkəzinin açılışı zamanı çıxışında bildirdiyi kimi: "Artıq Xankəndidə Qarabağ Universiteti fəaliyyət göstərir, 8 mindən çox insan yaşayır". Universitet təkcə təhsil sahəsində deyil, həm də iqtisadi və mədəni cəhətdən bölgəyə dinamizm gətirmək potensialına sahibdir. Burada yaradılan tələbə şəhərciyi, yataqxanalar, akademik və inzibati binalar həm yerli infrastrukturun dirçəldilməsinə, həm də Xankəndinin gündəlik həyatına yeni nəfəs verir.

İnanırıq ki, bu dirçəlişin intellektual dayağı kimi ön sıralarda yer almağı əsas missiyası hesab edən və ölkə başçımızın davamlı dəstəyi ilə əhatə olunan Qarabağ Universiteti potensialını ilbəil əhəmiyyətli dərəcədə inkişaf etdirəcək. Qarabağ Universiteti ailəsi olaraq aydın şəkildə dərk edirik ki, bu müqəddəs torpaqlarda yaşayıb yaratmaq, kimliyimizin, tariximizin və gələcəyimizin ayrılmaz hissəsi olan doğma Qarabağımızın hərtərəfli tərəqqisində pay sahibi olmaq şərəfli və məsuliyyətli vəzifədir.

Qarabağ Universitetinin öncül təhsil və elm məbədinə çevrilmək missiyası və potensialı vardır. Peşəkar heyətimizin və hələlik yalnız ilk kursda təhsil alan tələbələrimizin qısa müddətdə qazandıqları uğurlar, istər Xankəndidə təşkil olunan konsertlərdə, istərsə də beynəlxalq festivallar və mədəniyyət günlərində təmsilçilikləri gələcəyə böyük ümidlər verir. Əminik ki, Ağdam Muğam Mərkəzinin səhnəsində Qarabağ Universitetinin tələbə və əməkdaşlarının da möhtəşəm konsertləri olacaq və onların ifaları muğam sənətinin yeni parlaq səhifələrini yazacaq.

**Şahin BAYRAMOV,**
**Qarabağ Universitetinin rektoru.**